**Yunis Əvəz oğlu ƏVƏZOV**
Azərbaycan Kooperasiya Universitetinin doktorantı,

# AZƏRBAYCANDA REGİONAL SƏVİYYƏDƏ SAHİBKARLIQ FƏALİYYƏTİNİN İNKİŞAFINI LƏNGİDƏN AMİLLƏR

**Xülasə**

*Tədqiqatın məqsədi* – Azərbaycanda regional səviyyədə sahibkarlıq fəaliyyətinin inkişafını ləngidən amillərin araşdırılması və ümumiləşdirilməsidir. Sahibkarlığın inkişafı ilə bağlı əsas problemlər açıqlanmış və sistemləşdirilmişdir. Azərbaycanın regionlarında mövcud olan resurslardan səmərəli istifadə edilməsində sahibkarlığın rolu baxılmışdı. Sahibkarlıq subyektlərinin fəaliyyətinin daha səmərəli təşkilində dövlət dəstəyi mexanizmlərinin əhəmiyyəti əsaslandırılmışdır. Yeni obyektivlər şəraitində Azərbaycanın regionlarında sahibkarlıq fəaliyyətinin inkişafını ləngidən problemlərin həlli üzrə tövsiyələr və təkliflər hazırlanmışdır.

*Tədqiqatın metodu* formasında bir sıra metodlardan, ilk növbədə təhlil, sintez, müqayisə və ümumiləşdirmə metodlarından istifadə edilmişdir. Eyni zamanda, regionlarda sahibkarlıq fəaliyyətinin inkişafına mane olan problemlərin həlli yolları üzrə aparılan tədqiqatlara istinadlar olunmuşdur.

*Tədqiqatın nəticələri* – baxımından qeyd edək ki, alınmış nəticələrdən ölkə regionlarında sahibkarlıq fəaliyyətini intensivləşdirmək tədbirlərinin görülməsində istifadə etmək səmərəli ola bilər.

**Açar sözlər**: Azərbaycan, regionlar, regional sahibkarlıq, regionların inkişaf problemləri, sahibkarlığın inkişafına mane olan problemlər, sahibkarlığın inkişaf istiqamətləri.

**UOT:** 332:332.1
**JEL:** R10; R11; R19
**DOI:** https://doi.org/ 10.54414/CONW9498

## Giriş

Müasir dövrdə sahibkarlıq fəaliyyətinin inkişaf etdirilməsi dünya miqyasında aktual problemə çevrilmişdir. Sahibkarlıq fəaliyyətinin inkişafının öyrənilməsi onun ölkənin iqtisadi inkişafının dinamik şəraitinə yüksək səviyyədə uyğunlaşmasının təmin edilməsi, sosial iqlimin yaxşılaşdırılması, siyasi problemlərin həlli üçün vasitələrdən biridir. Son zamanlar regional səviyyədə sahibkarlıq fəaliyyətinin inkişafını ləngidən amillərin araşdırılması məsələləri elmi ədəbiyyatda getdikcə daha çox müzakirə olunur. Habelə sahibkarlıq fəaliyyətinin inkişafının və fəaliyyətinin qiymətləndirilməsi üçün ən səmərəli metodoloji yanaşmaların axtarışı getdikcə daha da genişlənir. Ümumiyyətlə, sahibkarlıq, müəyyən tarixi və sosial-iqtisadi şəraitdə önəmli rola malik olan və bütün təkrar istehsalın inkişafının dinamikliyinə təkan verən xüsusi innovativ istehsal formasıdır. Bazar konyunkturasının strukturuna təsir göstərən istehsal münasibətlərindəki dəyişikliklər sahibkarlıq fəaliyyətinin spesifik xüsusiyyətlərini, dəyişən şəraitə uyğunlaşma ilə bağlı özünəməxsus adaptiv xüsusiyyətlərini ortaya qoyur. Nəticə etibarı ilə bazar konyunkturasında dəyişikliklər özünü daha qabarıq şəkildə göstərdikcə, sahibkarlıq imkanları genişlənir.

Sahibkarlığın davamlı inkişafı iqtisadi tərəqqinin, ÜDM-in və milli gəlirin artımını şərtləndirən şərtlərdən biridir və bu amil həm də iqtisadi münasibətlər sistemində ümumi iqtisadi funksiyanın təzahürü kimi çıxış edir. Sahibkarlığın ən mühüm vəzifəsi resurslardan istifadə etməkdir. Sahibkarlığın inkişafı həm bərpa olunan, həm də məhdud resurslardan səmərəli istifadəni nəzərdə tutur. Beləliklə, sahibkarlıq pul qazanılan əsas fəaliyyət sahəsidir. Zəif və inkişaf etməmiş sahibkarlıqla firavan cəmiyyət mövcud ola bilməz. Sahibkarlıq əhəmiyyətli sosial proqramları dəstəkləyərək müsbət reputasiya qazanmağa çalışır.

## Regional səviyyədə sahibkarlıq fəaliyyətinin inkişafını ləngidən amillərin araşdırılması

Sahibkarın fəaliyyəti əməyin cəlb edilməsini və yeni iş yerlərinin yaradılmasını, bazarda mənfəətə

nail olmağı, iqtisadi münasibətlərin təkmilləşdirilməsini, yeni əmtəə və xidmətlərin istehsalını, onların istehsal nəticələrinin bazara təqdim edilməsini və s. əhatə edir. Bunlar sahibkarlığın inkişafına töhfə verir, bunun sayəsində sahibkarlığın müxtəlif təşkilati-hüquqi formalarını təkmilləşdirmək və inkişaf etdirmək imkanı əldə edilir. Sahibkarlar ölkənin iqtisadi və sosial inkişafında önəmli rol oynayırlar. Bu onunla bağlıdır ki, onlar yeni iş yerləri, müasir texnologiyalara və innovativ ideyalara əsaslanan yeni mal və xidmətlər yaradır, ölkə iqtisadiyyatını stimullaşdırır. Bundan əlavə, müxtəlif səviyyəli sahibkarlar sosial məsuliyyət daşımaq, ictimai xeyriyyəçilikdə iştirak etmək, cəmiyyətin sosial sferasının inkişafına təsir göstərmək imkanı əldə edirlər. Məsələn, sahibkarların sonradan yaratdıqları bir çox yeni texnologiyalar və xidmətlər əksər sosial layihələrin inkişafı üçün əsas olur, məsələn, onlar təhsil, idman və ya mədəniyyət üçün vəsait təmin edir ki, bu da vətəndaşların həyat keyfiyyətinin yaxşılaşdırılmasına müsbət təsir göstərir [1, s.40]. Sahibkarlıq fəaliyyəti beynəlxalq və milli iqtisadiyyatların əsasını təşkil edir, bu kateqoriyalı biznes çətin şərtlərə baxmayaraq dövlətlərin inkişafına kömək edir. Çünki sahibkarlıq fəaliyyəti ümumilikdə sahibkarlığın əsasını təşkil edir. Beləliklə, sahibkarlıq fəaliyyəti əhalinin böyük bir hissəsini işlə təmin edir, lakin ciddi iqtisadi dəyişikliklərə, o cümlədən qlobal dəyişikliklərə qarşı həssas olaraq qalırlar [2, s. 143].

Kapitala çıxış bütün dünyada sahibkarlığa başlamaq üçün əsas maneələrdən biridir. Kapitalın sahibkarlıqda innovasiyalar yaratmağa, böyüməyə və iş yerləri yaratmağa imkan verən ən önəmli komponentlərdən biri olduğundan, onun sahibkarlığa başlayarkən əhəmiyyətini daha yaxşı başa düşmək olar. Bəzi araşdırmalarda, bir çox insanın kapital tapa bilmədiyi üçün sahibkarlıq karyerasından imtina etdiyi müəyyənləşdirilmişdir. Kapitala çıxış sahibkarlıq üçün əhəmiyyətli maneə olduğundan, hətta dünyanın ən inkişaf etmiş ölkələrdə də sahibkarlara dövlət tərəfindən əhəmiyyətli dəstək verilir. Bu yolla, xüsusilə sahibkarlıq fəaliyyətinə başlanılmasının ilk illərində sahibkarları mümkün qədər maliyyələşdirməklə onların iqtisadiyyatda iştirakını təmin etmək məqsədəuyğundur [3, s.1856].

Sahibkarlıq subyektləri üçün növbəti problem yüksək vergi və rüsumlardır. Vergi sisteminin təkmilləşdirilməməsi regionlarda sahibkarlıq fəaliyyətini ləngidən əsas amillərdən biridir. Vergitutma və fəaliyyət növündən asılı olaraq bir sahibkar müxtəlif faiz dərəcələri ilə vergi ödəyir. Ancaq müxtəlif fondlara məcburi ödənişlər də var. Buna görə sahibkarlar böyük maliyyə itkisinə düçar olur və iş aparmaq onlar üçün yararsız hala gəlir. Digər bir problem isə qanunvericiliklə bağlıdır. İlk olaraq müxtəlif orqanlar tərəfindən aparılan yoxlamaları azaltmaq lazımdır. Qanunvericilik bazasının qeyri-sabitliyi - müəssisələrin fəaliyyət qaydalarında daim dəyişikliklərə gətirib çıxarır. Sahibkarlar bütün dəyişiklikləri daim müstəqil şəkildə izləməli və hər an qüvvədə olan qanunlara yenidən baxılması barədə bütün məlumatları toplamalıdırlar [4, s. 68]. Həm də tənzimləyici orqanların tələbləri ilə əlaqədar sahibkarlara bütün lazımi məlumatları vermək lazımdır. Bütün mülkiyyət formalarının bərabərliyi və fərdi mülkiyyətin qorunması üçün hüquqi təminatlar olmalıdır. Hüquqi amillərin sahibkarlıq fəaliyyətində rolu böyükdür. Sahibkarlıq o zaman inkişaf edə bilər ki, o, qanunla qorunsun. Odur ki, istənilən ölkədə, o cümlədən Azərbaycanda sahibkarlıq fəaliyyətinin gücləndirilməsi üçün mütərəqqi qanunların qəbul edilməsi və reallaşdırılması zəruridir. Sahibkarlıq fəaliyyəti inkişaf etmiş ölkələrdə bu sahədə xeyli işlər görülduyünü, nəticədə həmin ölkələrdə ÜDM-də əhəmiyyətli artım olduğunu nəzərə alsaq, Azərbaycanın da həmin ölkələrin təcrübəsini mənimsəməlidir. Maliyyə və kredit sisteminin çatışmazlığı da regionlarda sahibkarlıq fəaliyyətinin gücləndirilməsini ləngidən amillər sırasındadır. Sahibkarlığın İnkişaf Fondu (SİF) haqqında Əsasnaməyə uyğun olaraq fərdi layihələrə və sahibkarlıq proqramlarına maliyyələşdirmə və kredit vermək sərbəst olmalıdır.

Ölkənin əmək qabiliyyətli əhalisinin sayına ən çox demoqrafik amil təsir göstərir. Sosial-əmək amilləri qrupu tədqiq olunan ərazinin insan resurslarını (yaşayış səviyyəsi, işsizlik) xarakterizə edir. İnvestisiya amilləri sahibkarlıq subyektinin iqtisadi cəlbediciliyinə təsir göstərir. Öz növbəsində iqtisadi inkişafın səviyyəsi sahibkarlığa birbaşa təsir göstərir [5, s.45]. Yuxarıda göstərilən təsnifatların hər birinin öz üstünlükləri və mənfi cəhətləri var və bu və ya digər təsnifatın istifadəsi

qarşıya qoyulan məqsədlərdən asılıdır. Regionlarda sahibkarlıq fəaliyyəti sürətli kapital dövriyyəsi sahəsində inkişaf edir. Elmi sahədə isə inkişaf getmədiyindən, bu, iqtisadiyyatın inkişafına mənfi təsir göstərir. Çünki bu, onun innovativ potensialını və nəticədə dünya bazarında rəqabət qabiliyyətini əhəmiyyətli dərəcədə azaldır. Odur ki, bu sahədə tədbirlərin görülməsi məqsədəuyğundur. Kiçik bir müəssisə yaratmaq, onu idarə etmək olduqca çətindir, çünki müxtəlif səviyyələrdə olan problemləri həll etmək lazımdır. Bu baxımdan, səriştəsiz idarəetmə müəssisələrin əksəriyyətinin qarşılaşdığı əsas problemdir. Qeyri-peşəkar idarəetmə, marketinq, maliyyə, istehsal, tədarük sahəsində biliklərin olmaması, idarəetmə təcrübəsinin olmaması və ya qeyri-standart vəzifələrin həll olunmaması ilə ifadə olunur. Azərbaycanda insan kapitalının inkişafına ciddi investisiyalar lazımdır, buna görə cəmiyyət lazımi bilik və bacarıqlara sahib, yaradıcı, aktiv olan, dəyişən şərtlərə uyğunlaşan, təbiəti ilə fərqli təbiətdəki vəzifələri qəbul edə bilən insanların formalaşması üçün əlverişli bir mühit yaratmalıdır [6, s. 119].

Regionlarda sahibkarlığın üzləşdiyi əsas problemlər, qanunvericiliyin mürəkkəbliyi, müəssisənin açılması və bağlanması, mülkiyyət hüquqlarının qorunması proseslərindəki, maliyyə dəstəyinin verilməsindəki çətinliklər, kredit faizlərinin yüksək olması, ixtisaslı işçi qüvvəsinin çatışmazlığı, yüksək məşğulluq xərcləri, dəstəklənməmiş elmi-tədqiqat və təcrübə-konstruktor fəaliyyətləri, yüksək enerji xərcləri və digərləridir [7, s.112]. Sahibkarlıq fəaliyyətinin gücləndirilməsini ləngidən sıra problemlər də mövcuddur: sahibkarlıq subyektlərinin problemlərinin həllində ölkənin təsis qurumlarının kifayət qədər maraq göstərməməsi, büdcə maliyyələşdirilməsinin az miqdarda olması; sahibkarlara kredit və investisiya xidmətləri göstərən maliyyə və sığorta şirkətləri tərəfindən güzəştlər vermək mexanizminin zəifliyi; sahibkarlıq subyektləri üçün marketinq və məsləhət dəstəyinin yetərli olmaması; kiçik müəssisələrin fəaliyyət göstərməsi üçün geniş informasiya dəstəyinin olmaması. Bu problemlərin həlli sahibkarlıq fəaliyyətinin daha aktiv inkişafına kömək edəcək, yəni yeni mal və xidmətlər yaradılacaq, yeni iş yerləri açılacaq və regionların və nəticədə ölkənin iqtisadiyyatı inkişaf edəcəkdir. Bu problemləri həll etmək üçün maliyyə bazasının genişləndirilməsi və sahibkarlıq subyektlərinin xərclərini azaltmaq üçün tədbirlər görülməlidir. İlk öncə bunlar maliyyə, informasiya və əmlak dəstəyinin artırılması tədbirləri, eləcə də sahibkarlıq subyektlərinin mal və xidmətlərə tələbatının stimullaşdırılmasına yönəldilmiş tədbirlərdir.

Regionlarda sahibkarlıq fəaliyyətinin gücləndirilməsini ləngidən amillərə əsaslanaraq, onların mənfi təsirlərinin azaldılmasına yönəldilmiş əsas tədbirləri ayırmaq olar: 1) inzibati maneələrin azaldılması; 2) vergi tənzimlənməsi; 3) kiçik müəssisələri kadr dəstəyi. Sahibkarlıq fəaliyyətini dəstəkləmək üçün əsas tədbirlər milli iqtisadiyyatın inkişafı üzrə Strateji Yol xəritələrində və regionların sosial-iqtisadi inkişaf proqramlarında əsas hədəflərdəndir. Bunlara ilk öncə daxildir: biznes inkubatorlarının yaradılmasına dəstək; regional önəm daşıyan zəmanət fondlarının formalaşdırılması; regional kapital fondlarının yaradılması; ixrac yönümlü kiçik müəssisələrə dəstək; regional start-up layihələrinin birgə maliyyələşdirilməsi üzrə proqramlara dəstək [8]. Bütün bu problemləri həll etmək üçün proqram yönümlü bir yanaşma lazımdır. Həmin proqramda innovativ layihələr reallaşdıran müəssisələrə dəstək verilməsinə xüsusi diqqət yetirilməlidir. Çünki, onların reallaşdırılması yüksək xərclər və risklərlə əlaqələndirilir. Bu problemi həll etmək üçün patent və lisenziyalaşdırma fəaliyyəti ilə əlaqəli xərcləri azaltmaq, yeni məhsul növlərinin inkişafı və s. kimi sahibkarlığa dəstək mexanizmləri tətbiq etmək lazımdır **[9].**

## Yaxın perspektivdə Azərbaycanın regionlarında sahibkarlıq fəaliyyətinin gücləndirilməsi istiqamətləri

Sahibkarlar bazardakı boşluqları müəyyənləşdirmək və onları doldurmaq üçün həll yolları tapmaq bacarığı ilə tanınırlar. Bu, təkcə sahibkara deyil, bütün iqtisadiyyata xeyir gətirir. Yeni həllər, məhsul və ya xidmətlər hazırlamaq və ya mövcud olanları təkmilləşdirməklə sahibkarlar arasında rəqabət artır, bu da qiymətlərin aşağı düşməsinə və keyfiyyətin yüksəlməsinə səbəb olur. Sahibkarlar yeni və daha səmərəli istehsal üsullarını tətbiq etməklə məhsulun maya dəyərini azalda bilərlər. Bu, təklifin və nəticədə gəlirin artmasına səbəb olur [10, s.74]. Respublikamızın regionlarında sahibkarlıq fəaliyyətinin gücləndirilməsi üçün prioritet istiqamət avadanlıqların alınması üçün lizinq

mexanizmlərinin işlənib hazırlanmasıdır. Bu sahibkarlıq subyektləri tərəfindən biznesin inkişafına daha da böyük töhfə verəcəkdir. İnfrastrukturun yaradılması çərçivəsində sahibkarlıq fəaliyyətinin gücləndirilməsinin məcburi elementi olaraq regionlarda biznes inkubatorların yaradılması məqsədəuyğundur. Regionlarda sahibkarlıq fəaliyyətini dəstəkləyən infrastrukturun əsas obyekti kimi məhz biznes inkubatorlar çıxış edə bilər [11, s. 26]. Əgər yeni fəaliyyətə başlayan sahibkarların kreditləşdirmə mexanizmi zəif olarsa, bu, onların inkişafını ləngidən amillərdən biri hesab oluna bilər. Bu baxımdan sahibkarlara verilmiş kreditlərin səmərəliliyinin artırılması onların keyfiyyətinin idarə edilməsində ən vacib amildir. Sahibkarları iqtisadiyyatın bu sahəsinə cəlbi üçün şərait yaratmaq lazımdır, məsələn, innovativ layihələr üçün güzəştli kreditlər verilməsi.

Son illər Azərbaycanda sahibkarlıq subyektlərinə verilən güzəştli kreditlərin həcminin təhlili şəkil 1-də verilmişdir.




**Şəkil 1. 2015-2024-cü illərdə Azərbaycanda sahibkarlıq subyektlərinə verilən güzəştli kreditlərin həcmi.**

Şəkil 1-dən görürük ki, dövlət tərəfindən SİF vasitəsilə sahibkarlara verilən güzəştli kreditlərin həcmi tədqiq etdiyimiz dövrlərdə artıb-azalmışdır. Məsələn, 2015-ci ildə həmin kreditlərin həcmi 248,4 milyon AZN olduğu halda, 2017-ci ildə artıq onların həcmi 70,1% azalaraq 146,0 milyon AZN təşkil etmişdir. Azalmanın əsas səbəblərindən biri 2015-ci ildə ölkəmizdə il ərzində iki dəfə, fevral və dekabr aylarında manatın devalvasiyaya uğraması olmuşdur. 2018-2019-cu illərdə yenidən artım müşahidə olunmuş, lakin COVİD-19 pandemiyası səbəbindən sahibkarlara verilən güzəştli kreditlərin həcmi 2020-ci ildə 2019-cu ilə görə 48,1 milyon AZN və ya 37,9% azalmışdır. 2021-ci ildən etibarən dövlət tərəfindən SİF vasitəsilə sahibkarlıq subyektlərinə ayrılan güzəştli kreditlərin həcmi davamlı olaraq artmışdır. 2024-cü ildə onların həcmi 248,1 milyon olmuşdur ki, bu da 2016-cı ildən bəri ən yüksək rəqəmdir [12]. Qeyd edək ki, sahibkarlıq subyektlərinin fəaliyyətinin kəmiyyət ifadəsi ilə ifadə olunan nəticələri ilə yanaşı, sözügedən sektorun rolu çətin ölçülən hadisələrdə də öz əksini tapır: ölkənin bazar konyunkturasının ahəngdar inkişafı, tələb və təklif arasında tarazlıq; sahibkarlıq fəaliyyətinin çevikliyi və iqtisadi dəyişikliklərə yüksək uyğunlaşması nəticəsində makroiqtisadi proseslərin tarazlaşdırılmış artım trayektoriyası; rəqabətin yüksək səviyyədə saxlanması hesabına bazarın keyfiyyət strukturu; sektorun innovasiyaları yüksək qəbul etməsinə əsaslanan elmi-texniki tərəqqi. Bununla belə, ölkə üçün yüksək iqtisadi əhəmiyyətə baxmayaraq, Azərbaycanda sahibkarlıq fəaliyyətinin inkişaf səviyyəsi bir çox xarici ölkələrdən xeyli geri qalır. Sahibkarlıq fəaliyyətinin region iqtisadiyyatının inkişafını optimallaşdırmaq üçün çox böyük potensiala malikdir. Cəmiyyətin və kiçik müəssisələrin inkişafı problemlərini səmərəli şəkildə həll etmək üçün tənzimləmə bazasının daha da təkmilləşdirilməsi, bütün təsərrüfat subyektlərinin bazara çıxması üçün eyni şəraitin yaradılması və vergi yükünün azaldılması lazımdır. Yəni, sahibkarlıq fəaliyyətinin gücləndirmək məqsədilə vergi yükü azaldılmalıdır. Bunun üçün fəaliyyətə başladığı ilk illər ərzində sahibkarlıq

subyektləri üçün vergi tətilləri müəyyənləşdirmək və regional qanunlar vasitəsilə onlara mənfəət vergisi (ümumi vergitutma rejimi tətbiq edən müəssisələr üçün) və enerji xərclərini azaltmağa imkan verən şərait yaratmağa çalışmaq lazımdır. Sahibkarlıq fəaliyyətinin innovativ potensialının formalaşması və inkişafı üçün əlverişli iqtisadi mühitin formalaşmasında da önəmli yer vergi sisteminə aiddir [13, s. 428].

Bazar münasibətlərinin hazırkı inkişaf mərhələsində Azərbaycan üçün sahibkarlıq fəaliyyətinin gücləndirilməsinin stimullaşdırılması cəmiyyətin sosial quruluşunun əsasını təşkil etməli, iqtisadiyyatdakı böhran hadisələrinin aradan qaldırılmasını və yüksək inkişaf etmiş bazar iqtisadiyyatının formalaşmasını təmin etməlidir. Qeyd edilən məqsədlərə nail olmaq üçün sahibkarlıq subyektlərinin regionlarda rəqabətqabiliyyətliliyi təmin edilməlidir. Regionlarda sahibkarlıq subyektlərinin uğurlu fəaliyyətində və bazarlarda üstünlük təşkil etməsində əsas amil onların rəqabətqabiliyyətliliyi hesab olunur. İqtisadiyyatın qloballaşdığı müasir şəraitdə idxalın ixracla əvəzlənməsi və yerli istehsalın müasirləşdirilməsi zərurəti, sahibkarlıq subyektlərinin rəqabətqabiliyyətliliyinin gücləndirilməsi mexanizminin formalaşdırılmasının önəmliliyi daha da artır. Sahibkarlıq subyektlərinin rəqabətqabiliyyətliliyinin təminatı probleminin həlli onların fəaliyyət prinsiplərinin, istehsal və təklif etdikləri məhsul və xidmətlərin keyfiyyət xüsusiyyətlərinin müəyyənləşdirilməsinə, habelə onların rəqabət qabiliyyətinin qiymətləndirilməsinə əsaslanır [14, s.24].

Beynəlxalq və milli ekspertlər sahibkarlıq fəaliyyətinin rəqabətqabiliyyətliliyinin inkişafında əlverişsiz investisiya mühitini, aşağı rəqabəti, gəlirlərin və işsizliyin azalmasını, ölkə əhalisinin maliyyə-iqtisadi savadlılığının aşağı olmasını mənfi amil kimi çıxış etdiyini daima dilə gətirirlər. Bu kontekstdə demək lazımdır ki, respublikanın iqtisadiyyatında və onun regionlarında sahibkarlıq sektorlarında rəqabətin artırılması yolları hələ tam işlənməyib. Belə inkişafların olmaması müasir şəraitdə sahibkarlıq fəaliyyətinin rəqabətqabiliyyətliliyi siyasətinin reallaşdırılması istiqamətində fəaliyyətlərin elmi əsaslandırılmasına maneədir, lakin bu, vəziyyətin ümidsiz olduğu anlamına gəlmir. Sahibkarlıq subyektlərinin rəqabətqabiliyyətliliyinin səmərəli fəaliyyət göstərməsi üçün bir sıra şərtlər lazımdır ki, bunlar, istehsal amillərinin səfərbər edilməsinə kömək edən və sahibkarlıq fəaliyyətinin rəqabət üstünlüklərini yaxşılaşdıran əmək potensialının keyfiyyətinin artması, keyfiyyətli iqtisadi fəaliyyət baxımından resursların dəyəri və mövcudluğu, heyətin biliklərinin və bacarıqlarının olmasıdır.

Sahibkarlıq fəaliyyətinin rəqabət qabiliyyətinin artırılması baxımından regionların investisiya potensialını hərəkətverici qüvvə kimi qiymətləndirmədən bu və ya digər şəkildə iqtisadiyyata investisiya qoyuluşu sahəsində irəliləyiş mümkün deyil. Odur ki, ölkənin regionlarında sahibkarlıq fəaliyyətinin rəqabət qabiliyyətinin inkişafı üçün maliyyə mənbələri ilə təminat səviyyəsinin müəyyənləşdirilməsi işlərinin genişləndirilməsi tələb edilir. Regionlarda sahibkarlıq fəaliyyətinin daha səmərəli təşkili üçün azad iqtisadi zonaların yaradılması da səmərə verə bilər [15, s. 204].

**Nəticə**

Ölkədə və onun regionlarında sahibkarlıq fəaliyyətinin inkişafı istiqamətində müəyyən səylər göstərilsə də, sahənin tam və ya ən azı böyük ölçüdə reallaşdırıldığını söyləməyə dəyməz. Lakin sahibkarlıq fəaliyyətinin inkişafına təkan verən amilləri də nəzərdən qaçıqmamaq olmaz:

- ədalətli rəqabətin geniş şəkildə bərqərar olması, sahibkarların və mülkiyyətçilərin geniş sosial təbəqəsinin formalaşdırılması;
- vətəndaşların sahibkarlıq fəaliyyətində maksimum şəkildə özünü reallaşdıra bilməsinə şəraitin yaradılması;
- müxtəlif səviyyələrdə inkişaf etmiş infrastrukturların formalaşdırılması, onların aktiv artımının təmin edilməsi;
- sahibkarlıqda prioritet fəaliyyət sahələrinin inkişafının stimullaşdırılması;
- kiçik müəssisələrin istehsal fondlarının modernləşdirilməsi, qabaqcıl texnologiyaların, innovasiyaların və yeni texnologiyanın tətbiqi;
- sahibkarlıqla bağlı yüksək maliyyə və kommersiya risklərinin azaldılması yolu ilə rəqabət mühitində sahibkarlığın davamlı fəaliyyətinin təmin edilməsi və s.

**ƏDƏBİYYAT SİYAHISI:**

1. Боробов, В.Н. Роль предпринимателя в социально-экономическом развитии страны /

В. Н. Боробов // Тенденции развития науки и образования. – 2023. – № 102-2. – С. 38-41.

2. Əliyev, Ş.T. İlham Əliyevin kənd təsərrüfatı sahəsindəki islahatları real nəticələr verir. / İlham Əliyev-10 il hakimiyyətdə. Elmi-praktiki konfransın materialları. Bakı, "Şərq-Qərb" Nəşrıyyat Evi, 2013, s.141-156.

3. Çiçek, B. ve Karakaş, Y.E. (2020). Girişimcilerin gözünden girişimciliği etkileyen içsel ve dışsal faktörler. OPUS–Uluslararası Toplum Araştırmaları Dergisi, 15(23), 1849-1884.

4. Алиев, Ш.Т. Важнейшие детерминанты устойчивого развития экономики Азербайджана. Книга. Баку, «Элм», 2010. - 196 с.

5. Кузнецова, Е.П. Факторы, влияющие на предпринимательскую деятельность региона / Е.П.Кузнецова // Управление городом: теория и практика. – 2020. – № 3(37). – С. 40-46.

6. Əliyev, Ş.T. Azərbaycan iqisadiyyatı. Sumqayıt. SDU-nun Redaksiya və nəşr işləri şöbəsi, 2018, 376 s.

7. Zeynalov, A.A. İnnovativ sahibkarlıq: fərdi və institusional amillər. Audit 3 (2020), Cild 29, s. 108-117.

8. Azərbaycan Respublikasında kiçik və orta sahibkarlıq səviyyəsində istehlak mallarının istehsalına dair Strateji Yol Xəritəsi. Bakı, 6 dekabr 2016// https://e-qanun.az/framework/57125.

9. Piana, V., Aliyev, Sh.T. and etc. 2009 – Innovative Economic Policies for Climate Change Mitigation. Economics Web Institute, Rome.

10. Синяков, Д.М. Роль предпринимательства в экономическом развитии / Д. М. Синяков // Актуальные тренды в экономике и финансах : Материалы всероссийской научно-практической конференции, Омск, 07 декабря 2023 года. – Омск: Финансовый университет при Правительстве РФ, 2023. – С. 71-75.

11. Əliyev, Ş.T. Azərbaycanda kənd təsərrüfatının və aqrar sənaye kompleksinin inkişafinin strateji aspektləri. //İpək Yolu jurnal, 2018, №2, S.23-32. https://au.edu.az/upload-files/menu/ipek-yolu/2018_2/3Aliyev_Sh.pdf.

12. Azərbaycan Respublikasının Sahibkarlığın İnkişaf Fondunun hesabatları. https://edf.gov.az/az/content/22//.

13. Aliyev, Shafa. Priorities for strengthening Azerbaijan's economic security and sovereignty in the context of sustainable development //Sci. Educ. Innov. Context Mod. Probl. Issue 2, Vol. 8, 2025, IMCRA, pp. 420-446. DOI: 10.56334/sei/8.2.29 - https://imcra-az.org/uploads/public_files/2025-04/aliyev-shafa.pdf.

14. Rəhimov, K.K. Azərbaycan Respublikasında özəl sahibkarlıq strukturlarının maliyyə dayanıqlılığının təmin olunması istiqamətləri. Fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın avtoreferatı. Bakı, 2023, 32 s.

15. Алиев, Ш.Т. Проблемы организации и перспективы развития особых экономических зон. — Баку: Наука. – 2008. - 252 с.

**Юнис Аваз оглы АВАЗОВ**
Докторант Азербайджанского Университета Кооперации,

## ФАКТОРЫ, ПРЕПЯТСТВУЮЩИЕ РАЗВИТИЮ ПРЕДПРИНИМАТЕЛЬСТВА НА РЕГИОНАЛЬНОМ УРОВНЕ В АЗЕРБАЙДЖАНЕ

**Резюме**

*Цель исследования* – является изучение и обобщение факторов, замедляющих развитие предпринимательской активности на региональном уровне в Азербайджане. Систематизированы основные проблемы, связанные с развитием предпринимательства. Была рассмотрена роль предпринимательства в эффективном использовании ресурсов, имеющихся в регионах Азербайджана. Обоснована значимость механизмов государственной поддержки в более эффективной организации деятельности субъектов предпринимательства. Разработаны рекомендации и предложения по решению проблем, препятствующих развитию предпринимательства в регионах Азербайджана.

_В методе исследования_ использовался ряд методов, прежде всего анализ, синтез, сравнение и обобщение. При этом были сделаны ссылки на исследования, посвященные путям решения проблем, препятствующих развитию предпринимательской деятельности в регионах.

_Итоги исследования_ – следует отметить, что полученные результаты могут быть эффективно использованы для принятия мер по активизации предпринимательской деятельности в регионах страны.

**Ключевые слова:** Азербайджан, регионы, региональное предпринимательство, проблемы развития регионов, проблемы, препятствующие развитию предпринимательства, направления развития предпринимательства.

**Yunis Avaz AVAZOV**
_Doctoral student of Azerbaijan Cooperation University,_

## FACTORS HINDERING THE DEVELOPMENT OF ENTREPRENEURSHIP AT THE REGIONAL LEVEL IN AZERBAIJAN

### Summary

_The purpose of the research_ - is to investigate and generalize the factors that slow down the development of entrepreneurial activity at the regional level in Azerbaijan. The main problems related to the development of entrepreneurship were explained and systematized. The role of entrepreneurship in the efficient use of resources available in the regions of Azerbaijan was considered. The importance of state support mechanisms in more efficient organization of the activities of entrepreneurial entities was substantiated. Recommendations and proposals were developed to solve the problems that slow down the development of entrepreneurial activity in the regions of Azerbaijan in the conditions of new objectives.

_A number of methods_ were used in the research method, primarily analysis, synthesis, comparison and generalization. At the same time, references were made to studies conducted on ways to solve problems that hinder the development of entrepreneurial activity in the regions.

_The results of the research_ are in terms of the results of the study, it should be noted that the results obtained can be used effectively to take measures to intensify entrepreneurial activity in the regions of the country.

**_Key words:_** Azerbaijan, regions, regional entrepreneurship, development problems of regions, problems hindering the development of entrepreneurship, development directions of entrepreneurship.